# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Cenevrə toplantısı



**İsveçrənin Cenevrə şəhərində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin 31-ci ali səviyyəli toplantısı işə başlayıb.**

BMT-nin Cenevrə ofisi ilə tərəfdaşlıq çərçivəsində keçirilən toplantı 40-dan çox nüfuzlu lideri bir araya gətirib. Tədbirə 25-dən çox ölkəni təmsil edən sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri qatılıblar.

Qeyd edək ki, toplantının açılış mərasimində mərkəzin həmsədri Vayra Vike-Freyberqa, BMT-nin Cenevrə Ofisinin baş direktoru Tatyana Valovaya, Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus, Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Dorin Boqdan Martin, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un Prezidenti Muxtar Babayev və Finlandiyanın sabiq prezidenti Tarya Halonen çıxış ediblər.

"İnkişaf etməkdə olan ölkələr üçün DİM-lərin maliyyələşdirilməsi", "COP29: Vəddən tərəqqiyə", "Sağlamlıq və iqlim dəyişikliyi yaşıl rəqəmsal fəaliyyətin tətbiqi" kimi qlobal mövzuları əhatə edən bu tədbir bu il keçiriləcək 12-ci Qlobal Bakı Forumuna hazırlıq məqsədi daşıyır.

***XQ***

Xalq qəzeti .- 2025.- 17 yanvar (№ 10). - S.10.